Qəbələlilər ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiramlarını böyük möhtəşəmliklə nümayiş etdirdilər

Artıq 13-cü ildir ki, dekabr ayının 12-də paytaxtımız Bakı şəhəri, digər şəhər və rayon mərkəzləri insan selinə qərq olur. Yüz minlərlə insan xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ehtiramlarını bildirmək üçün Bakı şəhərində ulu öndərin uyuduğu Fəxri xiyabana, digər şəhər və rayonlarda isə dahi rəhbərin adını daşıyan və abidəsinin ucaldığı parklara axışır.



Hər il olduğu kimi bu il də Qəbələdə ümummilli lider Heydər Əliyevin anım günü çox izdihamlı keçdi. Sübh tezdən minlərlə rayon sakini, rayonumuzun qonaqları Qəbələ şəhərinin mərkəzindəki Heydər Əliyev parkının önündəki meydana toplaşmışdı.

Saat 10-dur. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev, icra hakimiyyəti başçısının müavinləri, RİH aparatının digər məsul işçiləri, idarə və müəssisə rəhbərləri, ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsi önünə böyük sayğı ilə yaxınlaşır, postamentin üzərinə tər gül-çiçək dəstələri düzür, dahi şəxsiyyətin işıqlı xatirəsinə dərin ehtiramlarını bildirdilər. Sonra kollektivlər abidə önünə doğru hərəkətə başlayırlar. Hamının üzündə kədərlə yanaşı böyük qurur hissi də sezilir.

İnsanlar xalqımızın, dövlətimizin, müstəqilliyimizin xilaskar oğluna növbəti dəfə ehtiramlarını bildirməkdən şərəf duyurlar. Havanın soyuq olmasına baxmayaraq öz körpə nəvəsinin qolundan tutub gələn baba və nənələr də bu il əvvəlkindən çoxdur. Mərasimdə maraqlı bir səhnənin şahidi olduq.

Abidə önünə yaxınlaşan bir baba nəvəsindən soruşdu: Bu kimdir, balam? Körpə heç düşünmədən: —Azərbaycandır, baba dedi. Məncə ümummilli liderə ən doğru qiyməti bu yenicə dil açan körpə verdi. Heydər Əliyev Azərbaycandır. Məhz Heydər Əliyevin sayəsində bu günkü Azərbaycan mövcuddur. Qədirbilən xalqımız məhz buna görə ümummilli liderin xatirəsini bu cür əziz tutur. Zaman bizi Heydər Əliyevin cismən var olduğu illərdən nə qədər uzaqlaşdırsa da nə qədər ki, Azərbaycan xalqı var, bu dahi şəxsiyyətin işıqlı xatirəsi heç vaxt unudulmayacaq.

Anım günü axşam qaranlığı düşənədək ulu öndərin abidəsini ziyarət edən qəbələlilərin və qonaqların ardıarası kəsilmədi.

***

Həmin gün ulu öndərin xatirəsinə ehsan verilmiş, mərasimdə ümummilli liderin ruhuna Qurani-Kərimdən ayələr oxunmuşdur.

Mərasimdə rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

«Qəbələ».
İlkin Vəlizadə.

Qəbələdə X beynəlxalq toplantı keçirilmişdir

Qəbələdə Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid Klubunun birgə təşkilatçılığı ilə X yüksək səviyyəli beynəlxalq toplantı keçirilib.

Toplantının açılış mərasimində Dövlət Komitəsinin sədri Nazim İbrahimov çıxış edərək il ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən görülmüş işlərin verdiyi səmərəli nəticələri diqqətə çatdırıb. Tədbirin Qəbələdə keçirilməsinin təsadüfi olmadığını söyləyən Nazim İbrahimov paytaxt Bakı ilə yanaşı, bölgələrin də sürətlə inkişaf etdiyini vurğulayaraq deyib: “Bugünkü tədbirin Qəbələdə keçirilməsi bir daha sübut edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə nəinki ölkəmizin paytaxtı, hər bir şəhər və kənd də inkişaf edir”.

(Ardı 3-cü səhifədə).